**Nərgiz Sulduz qızı MƏMMƏDLİ**
Milli Aviasiya Akademiyası, Müəllim
E-mail: nargis1mammadli@gmail.com
https://orcid.org/0009-0001-1353-8737

# DİSKURS TƏHLİLİ VƏ DİLİN SOSİAL KONTEKSTDƏKİ ROLU

**Xülasə**

Sosiolinqvistika, semiotika, pragmatika və diskurs təhlili kimi yeni tədqiqat istiqamətləri dilin qrammatik və struktur aspektlərinin öyrənilməsi ilə yanaşı, sosial və mədəni tərəflərinin də tədqiqini nəzərdə tuturdu. Bu yanaşmalar, dil istifadəsinə dair sintaktik nəzəriyyənin yenidən qiymətləndirilməsini tələb edir. Dilçilər dilin əsas funksiyalarından biri kimi faktiki və proposisional məlumatların ötürülməsini vurğulayır və bu məlumatların verilmiş və yeni informasiyanın təhlili ilə əlaqəsini araşdırırlar. Diskurs təhlili dilin sosial kontekstdə necə istifadə edildiyini və bu istifadənin necə sosial mənalar yaratdığını öyrənir. Diskurs anlayışının dilçiliyə inteqrasiyası, onun terminoloji mənası və semantik strukturu ətraflı şəkildə şərh edilir. Müxtəlif dilçilik ənənələrinin diskursa verdiyi təriflər müqayisə olunur, bununla yanaşı, diskursun sosial və mədəni kontekstdəki rolu, kommunikativ funksiyaları geniş şəkildə izah edilir. Diskursun yalnız linqvistik çərçivədə deyil, həm də cəmiyyət və mədəniyyət arasındakı əlaqəni necə əks etdirdiyi vurğulanır. Həmçinin, müxtəlif diskurs növlərinin yaranma prinsipləri və diskursun terminoloji sistemlərdəki yeri, eləcə də digər elmi sahələrlə əlaqəsi analiz edilir. Bu yanaşmalar diskursun dilçilikdəki əhəmiyyətini daha dərindən anlamağa və onun nəzəri və praktik tətbiqlərini müəyyən etməyə imkan verir.

**Açar sözlər**: diskurs təhlili, sosiolinqvistika, dil və cəmiyyət

**UOT:** 721.012
**DOİ:** https://doi.org/ 10.54414/ YLYY1433

**Giriş**

Müasir dilçilikdə diskurs təhlili təkcə dilin struktur səviyyələrini deyil, eyni zamanda onun sosial funksiyalarını və ictimai praktikalarla qarşılıqlı əlaqəsini öyrənmək baxımından mühüm araşdırma sahəsinə çevrilmişdir. Bu yanaşma dili mətn və danışıq çərçivəsində analiz etməklə yanaşı, onun arxasında dayanan sosial münasibətləri, ideoloji təsirləri və güc dinamikalarını da nəzərə alır. Dil cəmiyyətin ayrılmaz tərkib hissəsi kimi yalnız informasiya ötürmək üçün deyil, həm də sosial kimliklərin formalaşdırılması, mövqelərin müəyyən edilməsi və sosial münasibətlərin qurulması üçün vasitə rolunu oynayır. Diskurs anlayışı isə məhz bu çoxşaxəli dil hadisəsini sosial kontekstə bağlayaraq dilin necə istifadə edildiyini və bu istifadənin cəmiyyətə təsir mexanizmlərini aydınlaşdırmağa çalışır. Bu məqalədə diskurs təhlilinin nəzəri əsasları və onun sosial kontekstdə dilin rolunu necə izah etdiyi araşdırılacaq, dilin güc, ideologiya və sosial strukturla əlaqəsinə dair müxtəlif elmi yanaşmalara diqqət yetiriləcəkdir.

Linqvistikada əvvəllər yalnız tək cümlələrin təhlili ilə məşğul olunduğu bir dövrdə, Zellig Harris 1950-ci illərdə "Diskurs təhlili" adlı məqaləsində geniş mətnlərdəki dil elementlərinin paylanmasını və bu elementlərin sosial kontekstdəki əlaqəsini araşdırmışdır [10 s.47]. Harris bu sahədə iki əsas aspektə xüsusi diqqət yetirmişdir. Bunlardan biri cümlə səviyyəsindən yuxarı olan dil vahidlərinin təhlili, digəri isə linqvistik davranış ilə qeyri-linqvistik amillər arasındakı qarşılıqlı əlaqədir [13 s.2]. Lakin, onun bu yanaşması müasir diskurs təhlilindən bəzi fərqlərlə ayrılır, çünki Harris daha çox mətnin strukturunu və morfoloji aspektlərini vurğulamışdır.

1960-cı illərin ortalarında dilçilik və sosial elmlər sahəsində sosiolinqvistika, semiotika, pragmatika və diskursun öyrənilməsi kimi bir neçə yeni tədqiqat istiqamətinin formalaşması müşahidə olunurdu. Bu yeni yanaşmalar dilin yalnız qrammatik və struktur aspektlərinin öyrənilməsi ilə məhdudlaşmır, həmçinin sosial və mədəni aspektlərinin də dərinləşdirilmiş şəkildə tədqiq edilməsini nəzərdə tuturdu.

Dil istifadəsinə dair bu yanaşmalar sintaktik nəzəriyyənin yenidən qiymətləndirilməsini zəruri edir. Məsələn, bəzi tədqiqatçılar hesab edirlər ki, faktiki və proposisional məlumatların ötürülməsi dilin ən əsas funksiyalarından biridir və bu, çox vaxt nəzərdən qaçırılır, lakin Praqa Məktəbi dilçiliyi bu baxımdan istisna hesab olunur. Eyni zamanda, dilçilər cümlə quruluşunun təhlilində informasiya strukturunun, yəni verilmiş və yeni məlumatın, eləcə də mövzu-şərh prinsipinin nəzərə alınmasının vacibliyini vurğulayırlar. Bu yanaşmaya əsasən, diskursun müəyyən bir məqamında hansı informasiyanın artıq məlum olduğu və nəyin yeni təqdim edildiyi təhlil edilməlidir.

Diskurs təhlilinin cəlbediciliyi, əsasən, dilçiliyin sərhədlərinin yenidən müəyyənləşdirilməsi ilə bağlıdır. Saussure, Bloomfield və Chomskinin qurduğu struktur dilçiliyin izah və dəqiqlik prinsiplərindən geri dönüş çətin olsa da, dilin hərtərəfli anlaşılması üçün diskurs hadisələrinin, o cümlədən sintaktik aspektlərin nəzərə alınmasının zəruriliyi getdikcə daha aydın görünür. Hər hansı bir elmi paradiqmada olduğu kimi, transformasional qrammatika da daxili inkişaf dinamikasına malikdir. Belə ki, kontekstdən asılı qaydalar, məsələn, “a elementini c kontekstində b ilə əvəz et” prinsipi müəyyən edildikdə, bu qaydaları tətikləyən kontekstin mahiyyəti ilə bağlı suallar meydana çıxır. Bu kontekst sırf dilin daxili strukturuna aid edilə bilərmi? O, yalnız cümlə daxilində mövcuddur, yoxsa əvvəlki diskursla əlaqəlidir? Əməlin icra olunduğu situasiya və ya sosial kontekst də bu təsnifata daxil edilə bilərmi? Ümumiyyətlə, bu fərqli kontekstlər arasında fundamental bir fərq varmı?

Qrammatik və struktur vahidlər olan cümlə və ya feli birləşmələr dilin öyrənilməsi üçün mütləq ən vacib və ya ən böyük vahidlər deyil. Bununla belə, feli birləşmənin sintaksis baxımından əsas vahid olaraq qalacağı ehtimal edilir, çünki o, həm predikativ informasiyanı ehtiva edir, həm də nitq aktının potensial ifadə vasitəsidir. Bununla yanaşı, bəzi alimlər hesab edirlər ki, mühazirə, söhbət, nitq və hekayə kimi diskurs vahidləri struktur quruluşun ən yüksək səviyyəsini təşkil edir. Belə vahidlər mədəni baxımdan tanınan və bütövlük kimi qəbul edilən strukturlardır.

Tezliklə, dilçilər anladılar ki, dilin istifadəsi yalnız ayrı-ayrı cümlələrin strukturları ilə məhdudlaşmır. Cümlələrdən və mətndən kənara çıxaraq təhlil etmək vacibdir. Bu, sonradan “Diskurs Analizi” adlı yeni bir tədqiqat sahəsinin yaranmasına səbəb oldu. Diskursun rolunu başa düşmək üçün əvvəlcə bu xüsusi terminə tərif vermək lazımdır. Gee qeyd edir ki, diskurs yalnız dediklərimiz deyil, həm də bunu necə dediyimiz, necə hərəkət etdiyimiz və özümüzü necə təqdim etdiyimizlə əlaqəli olan bir şəxsiyyət quruluşudur [7 s. 7]. Diskurs həm danışıq, həm də yazılı dilin istifadəsini öyrənir.

Diskurs təhlili, dilin müxtəlif sosial və mədəni kontekstlərdə necə istifadə edildiyini və bu istifadənin necə sosial mənalar yaratdığını araşdıran bir yanaşmadır [13 s.12]. Jones qeyd edir ki, diskurs cümlələrin və ifadələrin necə bir araya gəldiyini və bu mətnlərin sosial dünyamızda necə yer aldığını öyrənmək anlamında başa düşülə bilər [12 s.15]. Dilin istifadəsi yalnız cümlə və sözlərdən ibarət deyil, bu cümlələrin, ifadələrin, hərəkətlərin və qeyri-şifahi ünsiyyətin insanlar arasında necə qarşılıqlı əlaqələr qurduğuna dair araşdırmalar aparılmalıdır [4 s.1].

Beləliklə, insanların nə demək istədiklərini anlamaq üçün dilin necə istifadə edildiyinə, məsələn, səs tonu, üz ifadələri, inamlar və gözləntilər kimi psixoloji anlayışlara diqqət yetirmək vacibdir [12 s.2]. Bu, diskurs təhlilinin əsas aspektlərindən biridir, çünki dil yalnız faktları və məlumatları ötürmək üçün vasitə deyil, eyni zamanda insanların sosial münasibətlərini, mədəniyyətlərini və dünyagörüşlərini əks etdirir. Jančaříková qeyd edir ki, mənanın sadə bir şey olmadığını anlamaq əhəmiyyətlidir, çünki mənanın danışan və dinləyən arasında bir qarşılıqlı əlaqə olduğunu və bunun sadə bir təsvirdən daha geniş əhatə dairəsinə malik olduğunu vurğulayır Bütün bunlara diqqət yetirmək ünsiyyət zamanı insanları daha yaxşı anlamağa kömək

edir, çünki diskurs yalnız ünsiyyətin məzmununu deyil, həm də ünsiyyətin formalarını, məqsədlərini və necə həyata keçirildiyini öyrənir. Diskurs təhlili, dilin istifadə şəraitini və funksiyalarını araşdıran bir tədqiqat sahəsidir. Daha dəqiq desək, bu, yalnız ünsiyyət qurmaq üçün deyil, həm də müxtəlif funksiyaları yerinə yetirmək üçün istifadə olunan dilin tədqiqidir [6 s.9]. Diskurs təhlili dili təkcə cümlə və ya mətn səviyyəsində deyil, daha geniş kontekstdə araşdırmağa çalışır. Buna görə də, dialoqlar və yazılı mətnlər kimi geniş linqvistik strukturları tədqiq edir.

Dil çoxsaylı funksiyaları yerinə yetirir. Məlumat vermək və əldə etmək bu funksiyalardan yalnız biridir. Dilin sosial funksiyalarını müzakirə edərkən, iki əsas funksiyanın xüsusilə vurğulanması zəruridir. Birincisi, sosial fəaliyyətləri dəstəkləməkdir, məsələn, oyun, iş və s., ikincisi isə mədəniyyətlərdə və sosial qruplarda insan əlaqələrini gücləndirməkdir [4 s.1]. Dil bir sosial praktikadır, çünki cəmiyyətin vacib bir hissəsini təşkil edir. Sosial praktikalar, dil vasitəsilə həyata keçirilən strukturlaşdırılmış və adətən qurumsallaşmış fəaliyyətlərdir. Məsələn, siyasət, kütləvi informasiya vasitələri və hüquq dilin aktiv şəkildə istifadə edildiyi sosial praktikalar sırasına daxildir [2 s.136].

Diskurs təhlili, dilin istifadə olunduğu kontekstlərlə arasındakı əlaqəni öyrənən bir sahə kimi də dəyərləndirilir. Diskurs analitikləri, dilin istifadəsini araşdıraraq, müxtəlif yazılı və danışıq mətnlərini, adi söhbətlərdən tutmuş, institusional danışıq formalarına qədər geniş spektri əhatə edirlər [5 s.56]. Diskurs müəyyən sosial və mədəni mühitlərdə yaranır və müxtəlif sosial və mədəni kontekstlərdə fərqli şəkildə istifadə olunur və başa düşülür. Dilin sosial və mədəni mühitlərdəki bu rolu çox vacib hesab olunur. [13 s.15].

Diskurs təhlilinin inkişafında mühüm rol oynayan digər bir istiqamət isə semiotikanın və mətn strukturunun öyrənilməsində Fransız strukturalist yanaşmalarının təsiri olmuşdur. 1960-cı illərdə Dell Hymes, nitqin sosial mühitdə araşdırılmasının vacibliyini vurğulayaraq, sosioloji perspektivdən yanaşmalar təklif etmişdir [11 s.67]. Bu dövrdə Austin, Searle və Grice kimi filosoflar dilin mahiyyəti, nitq aktı nəzəriyyəsi, danışıq qaydalarının formalaşdırılması və kontekstdə mənanın öyrənilməsi sahələrində mühüm töhfələr vermişlər [1 s.102].

Ümumilikdə, diskurs dilçilikdə pre-teorik statusa malik bir nitq hadisəsi olaraq qəbul edilir. Bu anlayış, hər hansı bir tanınan nitq hadisəsini, məsələn, bir söhbət, zarafat, və ya müsahibəni təşkil edən ifadələrin toplusunu əhatə edir [14 s.93].

Diskurs və diskurs təhlili həm dilçilər, həm də hər hansı bir dili öyrənənlər üçün böyük əhəmiyyət daşıyır. Onun vacibliyi bir neçə əsas aspektdə özünü göstərir. Diskurs təhlili mühüm tədqiqat sahəsidir, çünki o, müəyyən situasiyada istifadə olunan dilin və ona bağlı olan semiotik sistemlərin davamlılığına diqqət yetirir. Gumperz [9 s.15] qeyd edir ki, hər hansı bir danışıq və ya yazılı mətn dinləyicilərə və ya oxuculara qarşılıqlı əlaqədə olduqları insanlarla anlaşma və əməkdaşlıq qurmağa kömək edən qrammatik işarələr və göstərişlər sistemindən ibarətdir. O, bu strukturu altı əsas təbəqədə təsnifləndirir: semiotik quruluş, dünyanın qavranılması, fəaliyyət modeli, sosial və mədəni şəxsiyyətlərin formalaşması, siyasi əlaqələr və ünsiyyət sistemləri.

Diskursun elmi bir sahə kimi öyrənilməsi dilçilər üçün böyük əhəmiyyət kəsb edir. Bu sahə qrammatika, ritorika, cəmiyyət və yazı kimi ənənəvi tədqiqat istiqamətləri ilə yanaşı, semantika, pragmatika və sosiolinqvistika kimi dilçilik sahələrini də əhatə edir. Beləliklə, diskurs təhlili müxtəlif elmi fənlərin və yanaşmaların inteqrasiyasına imkan yaradır.

Diskurs analizi sahəsində əsas anlayışlardan biri isə "diskurs icması" anlayışıdır. Diskurs icması, müəyyən bir sosial və ya peşəkar qrupun üzvləri arasında dilin istifadə olunduğu və həmin dilin müəyyən qaydalar çərçivəsində necə formalaşdığına dair müəyyən edilmiş praktikaları ifadə edir. Bu anlayış, ilk dəfə John Swales tərəfindən təqdim edilmiş və diskurs təhlilinin vacib komponentlərindən biri kimi geniş şəkildə qəbul olunmuşdur. Swales diskurs icmasını müəyyən bir sosial qrupun dil və ünsiyyət qaydalarını müəyyən edən, xüsusilə dilin necə işlədiyini və hansı məqsədlə istifadə olunduğunu araşdıran bir konsepsiya olaraq təqdim edir [16 s.11].

Diskurs icmasının üzvləri, xüsusi bir sahə üzrə ixtisaslaşmış və müəyyən sosial, mədəni və

ya peşəkar məqsədləri olan insanlardır. Hər bir diskurs icması, üzvlərinin qarşılıqlı əlaqələrini asanlaşdıran, məlumat mübadiləsini təmin edən və məqsədlərini həyata keçirmək üçün xüsusi dil istifadə qaydalarına sahibdir. Bu icmaların müxtəlif xüsusiyyətləri var, müəyyən bir sahədə istifadə olunan terminologiya, xüsusi janrlar və yazılı ünsiyyət formaları, həmçinin o sahəyə aid olan davranış və ünsiyyət qaydaları bu xüsusiyyətlərə aid edilir. Məsələn, hüquq icması, akademik icmalar və tibbi icmalar hər biri özünəməxsus dil və ünsiyyət quruluşlarına sahibdirlər [4 s.2].

Diskurs icmasında iştirak edən insanlar, müəyyən sahələrdə yüksək ixtisaslaşmış məlumatlara malikdirlər və onların ünsiyyətləri məhz bu sahəyə xas xüsusiyyətləri nəzərə alaraq təşkil olunur. Swales bu icmaların üzvlərini tanımaq üçün bir sıra xüsusiyyətlər təqdim edir. Qrup bəzi ortaq məqsədlərə malik olmalı, ünsiyyət üçün müəyyən mexanizmlərə sahib olmalı və üzvləri arasında məlumat mübadiləsini təmin edən bir yol olmalıdır. İcmanın özünəməxsus janrları, spesifik terminologiya və lüğəti olmalı və müəyyən sahədə yüksək ixtisaslaşma səviyyəsinə malik olmalıdır [13 s.15].

Bir şəxs bir neçə diskurs icmasının üzvü ola bilər. Məsələn, bir insan universitet tələbəsi, bir könüllü təşkilatının üzvü və hərhansı bir qrupun üzvü ola bilər. Lakin, insanların diskurs icmalarındakı üzvlük dərəcələri müxtəlif ola bilir və bəzən bu icmalar arasındakı sərhədlər tam dəqiq olmaya bilir [13 s.16]. Diskurs icmalarının sərhədləri bəzən cəmiyyətin və ya müəyyən bir mühitin sosial qaydalarına uyğun olaraq dəyişə bilər, yəni bu sərhədlər sabit və dəqiq olmaya bilər. Bu xüsusiyyət, diskurs icmalarını tədqiq edən mütəxəssislər üçün vacib bir amildir, çünki bu icmaların əlaqələrindəki elastiklik və dəyişkənlikləri anlamaq diskurs təhlilinə yeni yanaşmalar gətirə bilər [ 4 s.3].

Diskurs icmalarının üzvləri arasında münasibətlər qurularkən, bu icmaların özlərinə xas dil qaydaları ilə yanaşı, mədəni və sosial elementlər də nəzərə alınmalıdır. Hər bir diskurs icmasında insanların müəyyən qaydalara, məqsədlərə və istifadə etdikləri xüsusi terminologiyaya riayət etməsi gözlənilir. Bu, yalnız ünsiyyətin effektivliyini təmin etmir, eyni zamanda sosial və mədəni strukturun davamlılığını təmin edir [2 s.136]. Məsələn, bir tibbi icmada fəaliyyət göstərən üzvlər, təbabət terminologiyasını və xüsusi yazılı ünsiyyət qaydalarını istifadə edirlər, lakin həmin insanlar hüquq sahəsində və ya akademik mühitdə fərqli diskurs icmalarına daxil ola bilərlər və belə olduqda onlar həmin mühitlərin də özünəməxsus dil qaydalarına riayət etməli olurlar [ 13 s.12].

Ünsiyyətlə bağlı tədqiqatların artması nəticəsində diskurs bir çox peşə sahələrinə daxil olub. Diskursun sosial, mədəni və peşəkar kontekstlərdə necə istifadə olunduğunu öyrənmək, bu sahələrdə çalışan mütəxəssislərə, məsələn, hüquqşünaslar, müəllimlər, həkimlər və jurnalistlərə ünsiyyətin necə qurulması və qarşılıqlı əlaqələrdə daha effektiv olmalarını anlamağa kömək edir [2 s.136].

Kong-un sözlərinə görə, peşəkar diskurs müəyyən sahələrdə çalışan mütəxəssislər, məsələn, vəkillər, həkimlər, mühəndislər və ya iş yerində xüsusi təlim keçmiş digər şəxslər tərəfindən istifadə olunan dildir. Bu, hüquq, tibb, təhsil və elm sahələri kimi ixtisaslaşmış icmalar üçün xarakterik olan fərqli peşə sahələrində tətbiq olunur. Bəzi alimlər iddia edirlər ki, peşə diskursu, birinin peşəkar rola malik olduğu və buna görə də adi bir insandan daha yüksək statusa sahib olduğu ünsiyyəti əhatə edir, bu səbəbdən də adətən bir müəssisədə baş verir. Digər tərəfdən, Geluykens və Pelsmaekers bildirirlər ki, peşəkar qarşılıqlı əlaqə yalnız peşə mühitində məhdudlaşmamalıdır, bu, asanlıqla birinin şəxsi evində də baş verə bilər. Hər bir peşənin özünəməxsus tələbləri mövcuddur və peşəkar ünsiyyət prosesində spesifik terminologiyadan istifadə olunur. Buna görə də diskursdan danışarkən onun müxtəlif növlərinin mövcudluğunu qeyd etmək vacibdir.

Diskurs müxtəlif sahələrdə xüsusi funksiyalar və məqsədlərlə tətbiq olunan fərqli növlərə malikdir. Hər bir diskurs növü öz sahəsinin xüsusiyyətlərinə uyğun olaraq spesifik terminologiya və ünsiyyət qaydaları ilə formalaşır.

*Siyasi Diskurs*. Siyasət və dil dərin bir şəkildə bağlıdır, çünki siyasi fəaliyyət dil olmadan mövcud ola bilməz. Siyasi fəaliyyətin həyata keçirilməsi əsasən dil vasitəsilə baş verir. Bu səbəbdən, siyasi diskursda auditoriyaya yönəlmək mühüm əhəmiyyət kəsb edir. Siyasi

diskursda yalnız siyasətçilər deyil, adi vətəndaşlar və seçicilər də aktiv iştirak edirlər.

*Elmi Diskurs*. Elmi diskurs da diskursun əsas növlərindən biri hesab olunur. Elmi yenilikləri düzgün şəkildə çatdırmaq bacarığı olmadan, elm sahəsində irəliləyiş əldə etmək mümkün deyil. Buna görə də elm adamlarının məlumatı düzgün çatdırması vacibdir. Alimlər elmi diskursa aid qaydalara əməl etməlidirlər. Elmi tapıntıların mənasını açıqlamaq və anlamaq üçün onlar elmi diskursun bir hissəsi olmalıdırlar. Alimlər spesifik terminologiyadan istifadə edirlər ki, bu da ilk baxışda həmin sahəyə bələd olmayan birisi üçün tamamilə yad görünə bilər. Məsələn, bir çox insan bəzi elmi mətnləri oxuyarkən onların gerçək mənasını anlamaqda çətinlik çəkir. Elmi məqalələr etibarlı məlumat mənbəyi kimi qəbul edildiyindən, onlar müvafiq struktura malik olmalı və həm alimlər, həm də digər oxucular üçün məlumatlandırıcı olmalıdır ki, informasiya həm effektiv, həm də səmərəli şəkildə paylaşılabilsin. Beləliklə, alimlər arasında ünsiyyətin başa düşülməsi üçün onların nəyi və harada kommunikasiyaya daxil etdiklərini tanımaları vacibdir. Əks halda, bu, ciddi qarışıqlığa səbəb ola bilər.

*Texniki Diskurs*. Texniki diskurs, texnologiya, mühəndislik, kompüter elmləri və bənzər sahələrdə elmi və texniki məlumatların ötürülməsini təmin edən dil növüdür. Bu diskurs əsasən praktiki məsələlər, texniki lüğət və dəqiqlik prinsiplərinə riayət etməklə əlaqədardır. Diskursun bu növündə oxucuya məhsul təsviri və ya texniki spesifikasiyalar verən mətnlər əsas rol oynayır.

*İqtisadi Diskurs*. Beynəlxalq biznes mühitinin inkişafı ilə iqtisadi diskursa da diqqət artır. İqtisadi diskurs, peşəkar mühitdə spesifik dil istifadəsidir və müəyyən iqtisadi terminlərin adlandırılmasında metaforik və metonimik ifadələrin istifadə edilməsinə imkan tanıyır. İqtisadi diskurs, xüsusi iqtisadi və maliyyə terminologiyasının istifadəsi, mətndə təşkilatlanmış struktur və yazılı və şifahi ünsiyyət forması kimi müəyyən dil xüsusiyyətləri ilə xarakterizə olunur. İqtisadi fikirləri anlamaq üçün iqtisadi metaforların və metonimiyanın düzgün şəkildə müəyyən edilməsi, onların təbiəti və funksiyasının isə ətraflı şəkildə təhlil edilməsi vacibdir.

**Nəticə**

Diskurs termini dilçilik tədqiqatlarında mühüm konseptual çərçivə kimi çıxış edərək, dilin yalnız struktur və semantik xüsusiyyətlərini deyil, eyni zamanda onun sosial, ideoloji və mədəni kontekstini əhatə edir. Dilçilikdə diskurs anlayışı təkcə nitqin sintaktik və funksional quruluşunu deyil, həm də onun ünsiyyət iştirakçılarının məqsədləri, sosial statusları və dünyagörüşləri ilə necə əlaqəli olduğunu öyrənməyə imkan verir. Bu yanaşma göstərir ki, istənilən mətn və ya nitq aktı spesifik sosial çərçivədə formalaşır və cəmiyyətin mövcud ideoloji dəyərlərini əks etdirir.

Müasir diskurs tədqiqatları dilin sosial təsir və güc münasibətlərinin qurulmasında oynadığı rolu üzə çıxarmağa yönəlmişdir. Xüsusilə, media, siyasət, akademik diskurs və gündəlik ünsiyyətin diskursiv xüsusiyyətləri analiz edilərək, onların sosial qavrayışlara və ideoloji manipulyasiyalara necə təsir etdiyi araşdırılır. Bu tədqiqatlar göstərir ki, dil sadəcə ünsiyyət vasitəsi deyil, eyni zamanda reallığın formalaşdırılmasında və cəmiyyətdəki dominant ideologiyaların yayılmasında mühüm rol oynayan bir vasitədir.

Diskurs təhlili həm də mətnlərin dərin məna qatlarını, onların alt mesajlarını və manipulyativ elementlərini üzə çıxarmağa imkan verir. Beləliklə, bu yanaşma dilçiliyin sərhədlərini genişləndirərək, onu sosial elmlərlə daha sıx əlaqələndirir və dilin yalnız formal strukturunu deyil, həm də onun sosial gücünü və təsir imkanlarını tədqiq etməyə yönəldir. Bu baxımdan, diskursun tədqiqi dilçilik elminin təkamülündə yeni mərhələlər açmaqla yanaşı, dilin sosial və mədəni mahiyyətini anlamaqda əvəzolunmaz bir vasitə kimi çıxış edir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Austin, J. L. *How to do things with words*. Oxford: Oxford University Press, 1962.
2. Baker, P., & Ellece, S. *Key terms in discourse analysis*. Bloomsbury Publishing, 2011.
3. Crystal, D. *A dictionary of linguistics and phonetics* (6th ed.). Oxford: Blackwell, 2008.
4. Gee, J. P. *An introduction to discourse analysis: Theory and method*. London: Routledge, 1999.

5. Gee, J. P. *An introduction to discourse analysis: Theory and method* (4th ed.). Oxon: Routledge, 2014.
6. Gee, J. P. *Discourse analysis: What makes it critical?* In R. Rogers (Ed.), *An introduction to critical discourse analysis in education*. New York: Routledge, 2011.
7. Gee, J. P. *Literacy, discourse, and linguistics: Introduction and what is literacy? Journal of Education*, 1989; 171: 5-17.
8. Grice, H. P. *Logic and conversation.* In P. Cole & J. Morgan (Eds.), *Syntax and semantics* (Vol. 3), New York: Academic Press, 1975.
9. Gumperz, J. *Discourse strategies*. Cambridge: Cambridge University Press, 1982.
10. Harris, Z. S. *Discourse analysis*. Washington, D.C.: Linguistic Society of America, 1952; 28: 1-30.
11. Hymes, D. H. *The ethnography of speaking*. In T. Gladwin & W. Sturtevant (Eds.), *Anthropology and human behavior* (pp. xx-xx). Washington, DC: Anthropological Society of Washington, 1962.
12. Jones, V. F., & Jones, L. S. *Comprehensive classroom management: Creating communities of support and solving problems* (10th ed.). Upper Saddle River, NJ: Pearson, 2012.
13. Paltridge, B. *Discourse analysis: An introduction* (2nd ed.). London: Bloomsbury, 2012.
14. Schiffrin, D. *Approaches to discourse*. Oxford: Blackwell, 1994.
15. Searle, J. R. *Speech acts: An essay in the philosophy of language*. Cambridge: Cambridge University Press, 1969.
16. Swales, J. *Genre analysis: English in academic and research settings*. Cambridge, UK: Cambridge University Press, 1990.

**Наргиз Сулдуз МАМЕДЛИ**
Национальная Авиационная Академия, Преподаватель
E-mail: nargis1mammadli@gmail.com
https://orcid.org/0009-0001-1353-8737

## ДИСКУРСНЫЙ АНАЛИЗ И РОЛЬ ЯЗЫКА В СОЦИАЛЬНОМ КОНТЕКСТЕ

**Резюме**

Социолингвистика, семиотика, прагматика и анализ дискурса как новые направления исследований предусматривают изучение не только грамматических и структурных аспектов языка, но и его социальных и культурных сторон. Эти подходы требуют пересмотра синтаксической теории в отношении использования языка. Лингвисты подчеркивают одну из основных функций языка как передачу фактической и пропозиционной информации и исследуют связь этих данных с анализом новой и уже известной информации. Анализ дискурса изучает, как язык используется в социальном контексте и какие социальные значения это использование создает. Дискурс исследуется не только на уровне предложения или текста, но и в более широком контексте. Социальные и культурные функции языка важны, и анализ дискурса является важным средством для изучения этих функций. Развитие этой области помогает лингвистам лучше понимать использование языка и позволяет более глубоко изучить его социальные функции. Вопросы использования языка в социальном контексте и создания социальных значений становятся все более значимыми. Кроме того, анализ дискурса исследует роль и влияние использования языка в различных контекстах.

**Ключевые слова**: дискурсный анализ, социолингвистика, язык и общество

**Nargis Sulduz MAMMADLİ**
National Aviation Academy, Lecturer
E-mail: nargis1mammadli@gmail.com
https://orcid.org/0009-0001-1353-8737

**DISCOURSE ANALYSIS AND THE ROLE OF LANGUAGE IN THE SOCIAL CONTEXT**

**Summary**

Sociolinguistics, semiotics, pragmatics, and discourse analysis as new research directions involve the study of not only the grammatical and structural aspects of language but also its social and cultural dimensions. These approaches necessitate the reevaluation of syntactic theory in terms of language use. Linguists highlight one of the main functions of language as the transmission of factual and propositional information and explore the connection between this data and the analysis of new and given information. Discourse analysis examines how language is used in a social context and what social meanings this usage creates. Discourse is studied not only at the sentence or text level but also in a broader context. The social and cultural functions of language are crucial, and discourse analysis is an important tool for studying these functions. The development of this field helps linguists better understand language use and allows for a deeper study of its social functions. The issues of language use in social contexts and the creation of social meanings are becoming increasingly significant. Additionally, discourse analysis investigates the role and impact of language use in various contexts.

**Keywords**: discourse analysis, sociolinguistics, language and society

**Daxil olub:31.07.2025**